DOI: https://doi.org/10.36719/2706-6185/56/13-18

**Nuralı Çələbiyev**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0684-8876
n_chelebiyev@mail.ru

# Şəxsiyyətin sosial təsirlərə amoral reaksiyaları və onların sosial-psixoloji təhlili

**Xülasə**

Bütün tarixi dövrlərdə insanların davranışı əxlaq normaları ilə qiymətləndirilmiş, ictimai əxlaqa zidd olan amoral davranışlar pislənilmiş, ictimai qınağa tuş gəlmiş və cəza obyekti olmuşdur. Ünsiyyətdə qeyri-normativ leksikadan istifadə, sərxoşluq, cinayət əməlləri, özünəqəsd (suisid – N.Ç) narkomaniya, yaşlı adamlara, əlillərə və uşaqlara hörmətsizlik, asosial, antisosial, amoral adduktiv və delikvient əməllər kimi dəyərləndirilmişdir.

"Deviant" davranış insanın rəftar və davranışının, əməl və hərəkətlərinin onun yaşadığı cəmiyyətdə faktiki olaraq bərqərar olmuş norma və standartlardan kənara çıxma hallarını əks etdirir. Onlardan biri də sosial davranışın təzahür formalarından biri olan amoral davranışdır. O, cəmiyyətdə mövcud olan mənəvi-əxlaqi davranış normalarının kobud şəkildə pozulması və destruktiv əməllərlə müşayət olunan və şəxsiyyətlərarası münasibətləri korlayan və kəskin konfliktlərə yol açan neqativ davranış tipidir. Amoral davranışlar dedikdə, hər hansı şəxsin cəmiyyətdə ümumi qəbul edilmiş əxlaq normaları, yaşam tərzi, standartları və prinsipləri ilə ziddiyyət təşkil edən hərəkətləri, əxlaq və birgəyaşayış normalarının kobud şəkildə pozulması nəzərdə tutulur. Bunlara ictimai yerlərdə siqaret çəkmək, spirtli içkilər qəbul etmək, bədən hissələrini çılpaq şəkildə nümayiş etdirmək, qeyri-normativ leksikadan (jarqon sözlər, ədəbsiz ifadələr, söyüş və s.) istifadə, kobudluq, insanların etibarından sui-istifadə, yalançılıq, narkotika qəbulu, ictimai yerlərdə tum çırtlamaq, ətraf mühiti çirkləndirmək, ictimai əmlaka ziyan vurmaq, qumar oyunları, uca səslə danışmaq, avtoxuliqanlıq, qeyri-rəsmi cinsi tərəfdaşlıq, pozğun həyat və s. aid edilə bilər.

Müasir qloballaşma cəmiyyətdə sosiodinamik və psixodinamik dəyişmələrə, o cümlədən həyat tərzinin modernləşməsinə, şəxsiyyətin dəyər motivasiya sahəsində, sosial yönəlişliyində əsaslı dəyişmələrə, şəxsiyyətə ailədən kənar təsir kanallarının artmasına səbəb olmuşdur.

Yeniyetmə və gənclərə ətraf mühitin neqativ təsirləri, o cümlədən sosial şəbəkələr, əxlaqi tərbiyəlilik səviyyəsi aşağı olan adamlar, müğənni və aktyorlar, idmançılar, əcnəbi tələbələr yad və mental dəyərlərə zidd olan əməllərin yayılmasına səbəb olurlar.

***Açar sözlər:*** *sosial təsir, əxlaq, davranış motivləri, deviant davranış, amoral reaksiyalar, aqressiya*

**Nurali Chelebiyev**
Azerbaijan State Pedagogical University, Sheki Branch
PhD in Pedagogy
https://orcid.org/0000-0002-0684-8876
n_chelebiyev@mail.ru

# Amoral Reactions of the Personality to Social Influences and their Socio-Psychological Analysis

**Abstract**

In all historical periods, human behavior has been evaluated by moral norms, and immoral behavior that contradicts public morality has been condemned, subjected to public condemnation, and punished. The use of non-normative vocabulary in communication, drunkenness, criminal acts, suicide (N.Ç), drug addiction, disrespect for the elderly, the disabled, and children, and asocial, antisocial, amoral, addictive, and delinquent acts have been evaluated.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

"Deviant" behavior reflects the cases where a person's attitude and behavior, actions and actions deviate from the norms and standards actually established in the society in which he lives. One of them is amoral behavior, which is one of the manifestations of social behavior. It is a type of negative behavior that is accompanied by a gross violation of the moral and ethical norms of behavior existing in society and destructive actions, and that spoils interpersonal relationships and leads to acute conflicts. Amoral behavior refers to the actions of any person that contradict the generally accepted moral norms, lifestyle, standards and principles in society, and a gross violation of the norms of morality and coexistence. These include smoking in public places, drinking alcohol, exposing body parts, using non-normative vocabulary (slang, obscene expressions, swearing, etc.), rudeness, abusing people's trust, lying, taking drugs, yelling in public places, polluting the environment, damaging public property, gambling, talking loudly, auto-hooliganism, informal sexual partnerships, promiscuous living, etc.

Modern globalization has led to sociodynamic and psychodynamic changes in society, including the modernization of lifestyles, fundamental changes in the value motivation of the personality, social orientation, and the increase in channels of influence on the personality outside the family.

The negative effects of the environment on adolescents and young people, including social networks, people with a low level of moral upbringing, singers and actors, athletes, and foreign students, lead to the spread of actions that are alien and contrary to mental values.

***Keywords:*** *social influence, morality, behavioral motives, deviant behavior, amoral reactions, aggression*

## Giriş

Davranış və ya rəftar şəxsiyyəti səciyyələndirən, tələbatlarla şərtlənən əməl sahibi kimi insanın özünə, başqa adamlara və mühitinə münasibətini səciyyələndirən müxtəlif situasiyalarda təzahür edən xassələr kompleksidir. Onun vasitəsilə insanın gerçək siması, xarakteri üzə çıxır. Rəftar insanın dünyagörüşü, xarakterinin əxlaqi tərbiyəlilik səviyyəsi, intellekti, özü haqqında təsəvvürləri əsasında təzahür edir.

Əxlaq problemi antik dövrdən başlayaraq bir neçə minilliklər ərzində günümüzə qədər bütün bəşəriyyəti düşündürən qlobal problemlərdən biri olmuşdur. Son yüzilliklər ərzində də bu problem gündəmdən düşməyən və XXI əsrdə də filosof, psixoloq, sosioloq, pedaqoqları, yazıçı və mütəfəkkirlərin diqqət yetirdiyi problem olaraq qalmaqdadır. Məşhur Avstriya psixoloqu Alfred Adler qeyd edirdi ki, insan həyatı iki əsas tələbat arasındakı mübarizəyə əsaslanır. Bunlardan birincisi hakimiyyət tələbatı və sosial qrupa mənsubluq, ikincisi isə bağlılıq və üstünlüyə canatma tələbatıdır. Adlerin konsepsiyasının mərkəzi anlayışı natamamlıq konpleksindən yaranan "konsepsiya"dır. Onun qənaətinə görə, öz natamamlığını, qüsurlarını dərk edən insan özünü başqaları ilə müqayisə edərək, sarsıntı keçirir və bu kompleksdən azad olmaq üçün mübarizəyə qoşulur. Problemə bu aspektdən yanaşdıqda, böyük alimin fikirləri ilə razılaşmamaq olmaz. Mənsub olduğu qrupda və ya mühitdə qabiliyyətsiz, bacarıqsız kimi tanınan hər hansı şəxs öz zəif "eqo"su ilə mübarizəyə qoşulur. Pozitiv nümunələri olmayan belələri diqqət mərkəzində olmaq üçün neqativ əməllərə əl atır, öz mövcudluğunu nümayiş etdirməyə, özünütəsdiqə cəhd göstərir.

Cəmiyyət tarixən insanlar arasında qarşılıqlı münasibətləri düşüncəli və rasional qurmaq üçün imperativ funksiyanı yerinə yetirməlidir. Şəxsiyyət bu normalardan yalnız öz mənafeyi naminə istifadə etməyə çalışırsa, onda normalar patologiyalarla əvəzlənir. ABŞ psixoloqu Tamotsk Şibutam qeyd edirdi ki, "müasir insanlar özlərinə nəzarəti itirmişlər: onlarda özünə nəzarət tərbiyəsi olmadığından, tənqid və qiymətləndirmə qabiliyyətlərini itirmişlər. Bu da elə-belə məsələ deyil, mahiyyətcə sosial problemdir" (İsmayılov, 2010, s. 26).

Şəxsiyyətin amoral reaksiyaları dedikdə, onun sosial təsirlərə (qrupun təzyiqi, konflikt, tələblər və s.) qarşı əxlaq və etikanın ümumi qəbul edilmiş normalarına zidd olan hərəkət və əməlləri başa düşülür. Onlara aqressiya, manipulyasiya, satqınlıq, şəxsi mənfəət əldə etmək və özünümüdafiə məqsədlərinə yönəlmiş zorakılıq və eqosentrizm və s. aid edilir.

**Tədqiqat**

Rəftar münasibətlə şərtlənir və müəyyən mənada onun ifadə tərzi formasında çıxış edir. Dominant təhrikedici qüvvə rolunda çıxış edən motivlər şəxsiyyətin davranışının əsasını təşkil edir. O, özündə münasibətlərin seçiciliyi, insanın fəallığı kimi müxtəlif təhrikləri (maraq, istək, meyl və s.) birləşdirir. Amoral davranışın yaranmasının başlıca səbəbi tərbiyə işində yol verilmiş qüsurlara görə fərdin kifayət qədər sosiallaşmaması və yaxud deviant davranışdır.

*Deviant, o cümlədən amoral davranışların motivasiyasını sosial və psixoloji amillərlə izah edən rus alimi M.İ.Rojkov onları 4 əsas qrupa ayırır:*

“1) hüquqi və əxlaqi şüurdakı qüsurlar; 2) şəxsiyyətin tələbatlarının məzmunu; 3)xarakterin xüsusiyyətləri; 4) iradi-emosional ailənin xüsusiyyətləri (Rojkov, 2003, s. 12).

*Klinik psixologiyada şəxsiyyətin amoral reaksiyalarının geniş yayılmış aşağıdakı formaları fərqləndirilir:*

- aqressiv hərəkətlər: birbaşa fiziki və ya verbal aqressiya (dava-dalaş, hədə, təhqir, söyüş, ədəbsiz ifadələr).
- sosial destruksiya: zorakılıq (bullinq, mobbinq, baykot, şayə yaymaq, qeybət).
- manipulyativ davranış: aldatmaq, vəd vermək, ələ salmaq, lağ və istehsa, şəxsi məqsədlər üçün etibardan və başqalarının adından sui istifadə etmə, xəyanət.
- ictimai normaların pozulması: alkoqol və narkotika qəbulu, kiçik xuliqanlıq, ictimai yerlərdə ədəbsiz davranış, suiqəsd (özünəqəsd).
- “qaranlıq triada”nın təzahürləri: narsizm, manipulyativizm (ələ salma, istehza etmə), psixopatik etinasızlıq.

Bəşər cəmiyyətinin ilk dövrlərində əxlaq cəmiyyət daxilində insanların praktik münasibətləri zəminində meydana gəlmişdir. Digər yanaşmaya görə isə, əxlaq özündə təbii qanunları əks etdirir. İnsan təbiətin bir hissəsi olduğu üçün əxlaq ona yüksək, təbiətüstü qüvvə tərəfindən bəxş edilmişdir. “Əxlaq” sözü latın mənşəli olub, “mores”, yəni, “ümumi qəbul edilmiş ənənələr” mənasında işlədilir və o, ictimai şüur forması olaraq, din və hüquq kimi cəmiyyətdə insanların sosial davranışının tənzimlənməsində xüsusi təsirə malikdir. “Antik filosoflar Empedokl (e.ə. 490-430) və Demokrit (e.ə. 460-370) bu termini konkret hadisələrin möhkəm, sabit təbiətini ifadə edən, obyektiv dünyanın, insanın ilk elementlərinin mahiyyəti kimi səciyyələndirmişdir” (Qəhrəmanova, 2019, s. 120).

Arxaik dövrdə (ibtidai cəmiyyətdə) əxlaqi tələblər ailənin qorunması və rifahı naminə “tabu” adlanan qadağanlar, adət və ənənələr formasında möhkəmlən-dirilmişdir. Quldarlıq və orta əsrlər dövrlərində o, sinfi mahiyyət kəsb etməyə başlamış, əxlaq dinlə qovuşmuş, qul və quldar, cəngavər və saray etiketi haqqında təsəvvürlər formalaşmışdır. Dirçəliş dövründə “insan”, “məhəbbət”, “yaradıcılıq”, maarifçilik dövründə isə “azadlıq”, “bərabərlik” və “qardaşlıq” əsas əxlaqi dəyərlər hesab edilmişdir. Tarixin yeni və ən yeni dövrlərində insanların əxlaqi idealları, uğurları, şəxsi səyləri və qabiliyyətləri cəmiyyətdə zənginlik və rifah yaradan insan obrazına fokuslanmışdır. Lakin sonralar elm və texnologiyaların inkişafı insanlar arasındakı qarşılıqlı münasibətlərin pisləşməsinə, yadlaşmaya, ədalətsiz rəğbətə yol açmış və amoralizm halları genişlənməyə başlamışdır. “Ayrı-ayrı fərdlərin qarşılıqlı münasibətləri ümumilikdə cəmiyyətin sosial-psixoloji mühitini müəyyənləşdirir. Bu, qəbul olunmuş faktdır ki, fərd digər insanlarla qarşılıqlı münasibətlərlə tənzimlənən ünsiyyət və birgəfəaliyyət prosesində formalaşaraq inkişaf edir, şəxsiyyətə çevrilir” (Əmrahlı, 2007, s. 158).

Şəxsiyyətin sosial təsirlərə amoral reaksiyaları sosial, psixoloji və şəxsi olmaqla üç əsas səbəblə izah olunur. Sosial səbəblərə asosial qrupların (küçə qrupları) və kəskin dəyişən həyat şəraitinin doğurduğu narahatlıqlar, psixoloji səbəblərə müdafiə mexanizmləri (məsələn, öz davranışını rasionallaşdırmaq və yaxud öz günah və pisliklərini başqasının üstünə atmaq, özünü haqlı çıxarmaq), şəxsi səbəblərə empatiyanın aşağı səviyyədə olması, hakimiyyət motivi, narsistik pozuntular aiddir. Amoral davranışlar neqativ sosial nəticələrə, o cümlədən nüfuzun itirilməsinə, ictimai qınağa, işdən və statusdan, mükafatdan məhrum edilməyə, sosial əlaqələrin itirilməsinə, tənhalaşmağa və hüquqi məsuliyyətə gətirib çıxara bilər. “İnsanın bütün sosial fəaliyyəti, onun bütün ömrü qırılmaz məsuliyyət zəncirindən ibarətdir. Əxlaqi məsuliyyət qüdrətli əxlaqi qüvvədir. Bu nəhəng qüvvənin vasitəsilə insanın mənəvi cəhətdən təkmilləşməsi, əxlaq normalarının kamilləşməsi üçün geniş

üfüqlər açılır. O, insanın daxili ləyaqəti ilə daxili zənginliyini əlaqələndirir" (Quliyev, Quliyeva, 2013, s. 156).

Məşhur alman filosofu Friderik Nitsşe (1844-1900) texnogen sivilizasiyasının formalaşmağa başladığı XIX əsrdə yazırdı: "Böyük şəhərlərdə psixikanın pozulması total xarakter alır, insan hətta öz yaxınlarından özgələşir, mədəni sərvətlər itirilir, demoralizasiya prosesi bütün gücü ilə dərinləşir. Bunun nəticəsidir ki, həyatın özü problemə çevrilmişdir" (İsmayılov, 2010, s. 28). Bir çox hallarda amoral əməl və hərəkətlərə yol verənlər cəmiyyətdə başqa adamlar tərəfindən müəyyən sanksiyalarla üzləşirlər və bu zaman özünümüdafiə üçün verbal və ya fiziki aqressiya nümayiş etdirirlər. "Ağır cinayətlərin 90%-i tənha insanlar tərəfindən törədilir. Narkoloji klinikalarda və həbs yerlərində saxlanılan gənclərin 75%-i natamam ailələrdə böyümüşlər" (Pobert, 2000, s. 6).

Aqressiv hərəkətlərin pislənilməsi və ya təqdir edilməsi aqressor tərəfindən fərqli reaksiya doğurur. Bəziləri söyüş, təhqir, çığır-bağır salmaqla, qorxutmaq və hədə yolu ilə öz məqsədləri üçün bu əməlləri vasitəsilə fayda götürməyə çalışırlar. Lakin əksər hallarda belə amoral hərəkətlər qarşı tərəfin əks reaksiyasına səbəb olur, açıq və gizli konflikt predmetinə çevrilir. "İnsanın inkişafını, fərd kimi mövcudluğunu, cəmiyyətdə fəal həyat mövqeyi tutub şəxsiyyətə çevrilməsini davranış mədəniyyəti olmadan təsəvvür etmək mümkün deyil. Tarixi təcrübə və gündəlik həyat sübut edir ki, cəmiyyətdən, adamlarla münasibətdən tam təcrid olma insani keyfiyyətlərin, sosial normaların itirilməsinə gətirib çıxarır". (Baxşəliyev, Rəhimova, 2019, s. 53)

Cəmiyyətdə insanların sosial davranışını mənfi cəhətdən xarakterizə edən aqressiv, addiktiv, antisosial, asosial, amoral və delikvient davranış formaları da mövcuddur ki, onların hamısı bir ümumi adla "deviant davranış" formaları adlandırılır. "İnsan fəaliyyətinin hər bir sahəsinin özünəməxsus mexanizmi və xüsusiyyətləri, həm də ümumi qanunauyğunluqları vardır. Bu sahələr arasında eyni zamanda müəyyən konfliktlər, ziddiyyətlər də mövcuddur". (Bayramov, 1992, s. 11)

İnsanlar həyatda bir-birlərindən təkcə nəyi edib, nəyi etmədiklərinə görə deyil, həm də necə edib-etmədiklərinə görə fərqlənirlər. Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski gənclərə müraciətlə yazırdı: "Siz insanlar arasında yaşayırsınız. Hər bir hərəkətiniz, hər bir arzunuz insanlarda əks olunur. Bilin ki, ürəyinizdən keçənlərlə mümkün olanlar arasında hədd vardır" (Matveyev, 1985, s. 6). Bu fərq həm də dövrün, zamanın əsas xüsusiyyətlərinin insanın mənəvi aləmindən necə keçməsi ilə xarakterizə olunur. Qədim Yunan filosofu Demokrit deyirdi ki, kimin xarakteri nizama salınmışdırsa, onun həyatı da firavanlaşmışdır. "Şəxsiyyətin dəyişməsinin kliniki formaları çoxcəhətli xarakter kəsb edir: onlar emosiyaların dəyişməsi formasında (depressiya, eyforiya), motivasiya sahəsinin (apatiya, düşüncəsizlik), özünə və ətrafdakılara qarşı münasibətin pozulması, (tənqidin pozulması, iradəetmənin itməsi), fəallığın zəifləməsi və s. şəklində təzahür edir" (Zeyqarnik, Bratus, 1980, s. 54).

Müasir dövrdə narsizm artıq təkcə nevrozun təzahür forması olaraq qalmır. O, dəyişir, təkəbbür və qürur predmetinə çevrilir. "Qiyamçı gənclik", "yeni əxlaq", "yeni etika və etiketlər" formalaşır, hər kəsin istədiyini edə bilməsi üçün mütləq azadlıq çağırışları güclənir. Müxtəlif subkulturalar, yeniyetmə və gənclərin qoşulduğu sosial qruplar, xüsusilə küçə qrupları onlara yad mədəniyyət nümunələrinin sirayət olunmasına və onların imitasiyasına səbəb olur.

İnsanların sosial davranış normaları sırasında başlıca yer tutan normalar mənəvi (əxlaqi) normalardır. Sosial normalardan biri kimi, əxlaqi məzmun kəsb edən sosial məsuliyyət, empatiya norması insanı bütün hallarda, xüsusilə başqaları xəstə, qoca, kasıb və köməksiz olduğu zaman onlara yardım etməkdə təzahür edir. "Azərbaycan cəmiyyətində qeyri-normal vəziyyət, ümumbəşəri bəla hesab edilən asosial əməllər – cinayətkarlıq, insan alveri və s. şəxsiyyətin özgələşməsi, əxlaqsızlıq, tənhalıq, narkomaniya, alkoqolizm, intihar və s. şəxsiyyətin və cəmiyyətin böhranının təzahür formaları kimi özünü göstərir" (Musayeva, 2013, s. 149).

Deviant davranışlar kompleks yaradaraq cəmiyyətdə əxlaq qanunlarının, norma və standartlarının kobud şəkildə pozulması və mənəviyyatsızlıq kimi dəyərləndirilir. Mənəviyyatsızlıqla həyat sürən insanlar cəmiyyətə pis nümunə sərgiləməklə yanaşı, həm də ictimai qınaq obyektinə çevrilirlər. Rus psixoloqu İ.S.Kon yazır ki, "Sərxoşluq, narkotika qəbulu, aqressivlik və hüquqa zidd davranışlar vahid blok yaradır. Belə ki, gəncin deviant davranışın bir formasına yönəlməsi, onun digərlərinə də cəlb ediləcəyi ehtimalını yaradır" (Kon, 1989, s. 25).

Ailədə valideynlərin, məktəbdə müəllimlərin sosial tələblərinə etinasızlıq və müqavimət göstərən bəzi yeniyetmə və gənclər "Mənim işlərimə qarışmayın", "Mən uşaq deyiləm", "Özüm bilərəm" və s. kimi əks arqumentlər gətirməklə yönəldikləri yanlış yoldan dönmək istəmirlər. Onların bəziləri təhsildən yayınır, evdən qaçır, diskoteka və gecə barlarına üz tutur, siqaret və ya narkotika qəbul edir, onlayn qumar oyunlarına qoşulur. "Narkotik maddələrdən həkim təyinatı olmadan süi istifadə nakomaniya xəstəliyinə səbəb olur. Bu xəstəlik insanı bir şəxsiyyət kimi mənəvi-psixoloji, sosial-hüquqi və sosial-tibbi mənada məhvinə doğru aparır, onu yaşadığı mühitdə, cəmiyyətdə təhlükəli fərdə çevirir" (Zahidov, 2004, s. 3).

Bəzən elə olur ki, yeniyetmə və gəncin amoral və asosial davranışlarına görə valideynlərə ünvanlanan şikayətlər onların ailəsində sərt cəzalandırılması ilə nəticələnir. Belə hallarda yeniyetmə və ya gənc islah olunmaq, pis əməllərdən əl çəkmək əvəzinə, valideynləri özlərinə qəsd edəcəkləri ilə hədələyir, güzəşt qoparmaq istəyirlər.

## Nəticə

İnsan həyata gəldiyi ilk dövrlərdən onu formalaşmış müəyyən qayda və normaları, həyat tərzi olan sosium əhatə edir. Məhz ilk uşaqlıq dövründə mənimsədiyimiz əxlaq normaları və qaydaları bizim mənəvi simamızın bazasını, mənəvi dəyərlərin formalaşmasının əsasını təşkil edir. Mənəviyyat insanın bütün həyatı boyu, həyatın müxtəlif yaş dövrlərində qarşılaşdığı mənəvi problemlər, keçmiş təcrübə və davranışın əsasında formalaşır. Burada sosiallaşma amilləri kimi ailənin, uşaq bağçasının, məktəbin, yaşlıların və həmyaşıdlar qrupunun, kütləvi informasiya vasitələrinin, internetin və s. xüsusi təsiri vardır.

Davranışda kənaraçıxmalar (deviasiyalar) cəmiyyətin siyasi, sosial-iqtisadi, mədəni həyatında baş verən sabitsizliyin, psevdomədəniyyətin gənclərin sərvət meyilindəki dəyişmələrin, əlverişsiz ailə-məişət münasibətlərinin, boşanma epidemiyasının, yeniyetmə və gənclərin davranışı üzərində valideyn nəzarətinin olmaması nəticəsi kimi meydana gəlir. Yeniyetmə və gənclərin amoral davranışları sırasında kobudluq, ədəbsizlik, dikbaşlıq, neqativizm, qiyam formalı etirazlar, aqressiya, böyüklərin tələblərinə qarşı müqavimət, özbaşınalıq, siqaret çəkmə, narkotika qəbulu, bar və diskotekalara alışma, suisid təlimə marağın zəifləməsi, motivasiyanın aşağı düşməsi, dərsburaxma və s. kimi amoral əməllər əsas yer tutur.

Son illər sosial şəbəkələrin Azərbaycan seqmentində yeniyetmələrin məktəb mühitində müəllimlərə qarşı yönəlmiş amoral hərəkətlərə aid video kadrlar geniş nümayiş olunur. Onlar dərsi pozur, sinifdə rəqs edir, partaların üstündə gəzir, müəllimlə mübahisə edir, oğru aləmini vəsf edən musiqilər səsləndirir, bununla da belə davranışlı adamlara loyal münasibət sərgiləyirlər.

Yeniyetmə və gənclər arasında aqressiv davranışların artmasında İnternet oyunları və sosial media platformalarının, xüsusilə "Tik-tok"platformasının güclü təsiri vardır. Onların şəxsiyyəti və psixikası tam formalaşmadığı üçün "Roblox", "Mavi balina" və digər İnternet oyunları aqressiv nümunəli bullinq və mobbinq kimi davranış pozuntularına yol açır, imitasiya və təqlid əsaslı davranışların güclənməsinə səbəb olur.

## Ədəbiyyat

1. Baxşəliyev, Ə. T., & Rəhimova, Q. V. (2019). *Azərbaycanlı gənclərdə mədəni adət və vərdişlərin formalaşmasının psixoloji problemləri (psixoloji oçerklər)*. ADPU-nun nəşriyyatı.
2. Bayramov, Q. B. (1992). *İnsan və zaman (İnsan fəaliyyətinin dialektikası)*. Azərnəşr.
3. Əmrahlı, L. Ş. (2007). *Şəxsiyyət və cəmiyyət*. MBM.
4. İsmayılov, F. Q. (2010). *Bəşəri problemlər*. Turan evi.
5. Kon, I. S. (1989). *Psikhologiya ranney yunosti*. Prosveshcheniye.
6. Matveyev, V., & Panov, A. (1985). *Nəzakət aləmində* (Azərbaycan dilində). Azərnəşr.
7. Musayeva, Ş. (2013). *Dəyərlər və vətəndaş cəmiyyəti: Bəzi etik aspektlərin təhlili*. Elm və təhsil.
8. Pobert, B. (2000). *Əxlaqi dəyərlərə dair mühazirələr*. İrşad mərkəzi.
9. Qəhrəmanova, Q. (2019). *Peşə etikası*. Optimist MMC.

10. Quliyev, S., & Quliyev, M. (2013). *Qloballaşma və müasir gəncliyin tərbiyə problemləri*. ADPU-nun nəşriyyatı.
11. Rozhkov, M. N. (Ed.). (2003). *Vospitaniye trudnogo rebenka. Deti s deviantnymi povedeniyami*. Vlados.
12. Zahidov, B. S. (2004). *Narkotizm və narkobiznes: Profilaktika məsələləri*. Bakı Universiteti nəşriyyatı.
13. Zeygarnik, B. V., & Bratys, B. S. (1980). *Ocherki po psikhologii anomal'nogo razvitiya lichnosti*. Izdatel'stvo Moskovskogo universiteta.

Daxil oldu: 03.08.2025
Qəbul edildi: 31.12.2025